Ədalət 2019.- 28 noyabr.- S.6.



Barat Vüsal

# İNANDIĞI EŞQİN YOLÇUSU

Onda Veravul çayının sahilinə bir uşaq gəlirdi.Qaça-qaça, uça-uça. Ayağı yalın, başı aşıq...

Bu yerləri gəzməkdən bezmirdi, yorulmurdu. Hiss edirdi ki, tək deyil, yanında kimsə var.

Amma hələ ki, ağlı kəsmədiyi üçün kim olduğunu görə bilmirdi.

Onda mənim də ayağıyalın vaxtlarımdı. Kəndimizin yanından keçən Zor arxına elə mən də ayağı yalın, başı açıq halda çimməyə gedirdim. Suyun gur axan yeri olan "Qıjqoy" deyilən yerə.

Mən də hiss edirdim ki, yanımda kimsə var. Amma hələ ki, görə bilmirdim...

***

**İnancı Eşqdir...**
**İnandığı Eşqdir!**

Bunu mən demirəm, bir şeiri deyir:

**Elə an olur ki,**
**Allaha inanıram, özümə yox.**
**Elə an olur ki,**
**Özümə inanıram, Allaha yox.**
**Elə an olur ki,**
**Nə özümə inanıram, nə də Allaha,**
**Sənə inanıram, Eşqim!**

Göründüyü kimi, inancı da, inandığı da, elə imanı da Eşqdir bu adamın.

Haqq dəlisi, Eşq yolçusudur, vəssalam!

Deyirəm a şair, a Ağamir Cavad, yaxşı ki, kainatın dərinliklərindən gəldin, Göydən öz şair ruhunla işıq kimi süzülə-süzülə...

Bu səbəbdən də (bu kəramət üzündən də!)

**...təkinə endin dünyanın,**
**Qalxdın özündən yuxarı!**

Ünvanı (gəldiyi məkan) Göy (lər)-Kainat olanlar gözümüzün qabağında yerə-göyə sığmırlar. Onları anlamırlar (anlamaq istəmirlər!)

Pıçıltıyla "Məchulam, bu pünhan sirrə dönmüşəm, məlumam, dəryada dürrə dönmüşəm" dediyin misraları kar olanların (özünə karlığa vuranların) qulağına lap dönə-dönə qışqırıb demək istəsən də! İnsan Kainatın kiçik modelidir. Bunu anlayanlar (və anladanlar!) eyni ruhun daşıyıcısı olurlar, eyni sözü deyirlər, başqa-başqa formada.

...Sokratdan soruşurlar:

-Haralısan?

"Afinalıyam" demək əvəzinə "Kainatdanam" dedi.

Ondan 20 əsr sonra Nəsimi gəldi dünyaya, "Mənşəyim Kainatdandır" demədimmi?

Nəsimidən 5-6 əsr sonra Səməd Vurğun kommunist şair ola-ola hardan bildi ki, "İnsan! O müqəddəs bir Kainatdır!"

Eyni ruhun daşıyıcısı olmaq üçün bircə dərsə getməlisən: Eşq dərsinə! Bircə kitab məktəbi bitirməlisən: Eşq məktəbini! Bircə kitab yazmalısan Eşq kitabı!

**Ürəyim odla dolub,**
**İmanım kamil olub!**
**İlhamı Haqqdan alıb,**
**Yazıram Eşq kitabı!**

demək haqqını qazanmalısan. Ağamir Cavad kimi!

Nə yaxşı o günü biz görüşdük, şair qardaşım!

Oxucuya üz tutub "İçimdə bir Mövlana var, üzünü görə bilmirsən" deyirsən. Hardan görsün? Əgər arifsə, öz üzü varsa görür və görəcək də.

Öz özü yoxsa elə sənin də, özünün də üzünü hardan görsün qafil oxucu, qafil insan?!

Bəlkə qafil və nadanları heç qınamağa da dəyməz. Çünki "Götürmə sözün niqabın" deyən şairin üzündəki niqabı da görmür heç onlar!

A şair, ilahi eşqin atəşində yana-yana bir ovuc külə dönürsən, yazırsan ki:

**Hər gün sənə açıram,**
**İlahi, söz qapımı.**
**Bəs nə vaxt döyəcəyəm,**
**Həyatda öz qapımı?!**

Sən öz qapını çoxdan döymüsən, açmısan əziz qələm qardaşım, ruhdaşım!

Şair kimi də!

İnsan kimi də!

Sən ana bətnindən keçərək Kainatdan gəlmisən. Yaxud əksinə, Kainatdan keçərək ana bətnindən! Nəyə görə?"Deyişən Ozan dünyanın Sazını almağa gəldim" demək üçün!

Sən əslində şeir yazmırsan. Ozan olub ozan dünyayla deyişirsən. Belə getsə bu gün- sabah, inşallah, onun sazını, əlindən yəqin ki, ala biləcəksən ...

Sən doğurdan da öz fikir və düşüncələrini aydın xalq dilində təqdim edirsən. Necə deyərlər, adam dilində yazırsan. Ona görə də səni oxuduqca şairliyindən qabaq adamlığın o dəqiqə bilinir. Düz deyirsən ki:

**Adam olmayanın dili bilinməz,**
**Allahın dilidir şairin dili.**

Adam (insan!) olaraq da çox şeyə, Yaradana və yaradılanlara borclu olduğunu dərk etdikcə yazmaya bilmirsən, deməyə bilmirsən:

**Borclu yaradıb Yaradan,**
**Borclu getməyək buradan.**
**Borcunu dərk edən adam,**
**Canın sağ olsun, sağ olsun!**

Ağamir, mənə elə gəlir ki, sən "mənim şairliyim göydən gəlibdir" deyəndə yanılıb eləməmisən. Əgər sən göydən gəldiyin gündən şair olmasaydın yerdə Veravul çayının sahilində bu qədər ayaqyalın, başı açıq qaça bilməzdin, uça bilməzdin. Doğma yurd- yuvaya, el-obaya məxsus yerləri ürəyin istədiyi kimi dolaşa bilməzdin. Sonralar xatırlayıb yaza biməzdin. Özü də bax, beləcə:

**Veravulçay, harda qaldı bəy günü,**
**Uşaqlığın haray günü, hay günü?**

**...Nə olduğun bilməyirəm dərd-qəmin,**
**Küləklərə açmış idim sinəmi.**

**Xəyalımın yelləncəyin nənəmin**
**Danışdığı nağıllardan asmışam,**
**Bu yerləri ayaqyalın gəzmişəm!**

Ayağına sağlıq şair!

Sənin şairliyin təkcə göylərdən gəlmir, yalın ayaqlarından da gəlir.

Ruhundan və hətta gördüyün yuxundan da gəlir. Gözələ və gözəlliyə vurğunluğundan da!

Hər yerdə ayaqyalın gəzə bilmədiyin kimi qanın və ruhun hər ruha (qana) qaynamadığı kimi yuxunu da hər yetənə (hər suya) danışmırsan:

**Su kimi dumduru gözlüm,**
**Yuxumu sənə danışdım.**

**Yaxşıya yozulsun deyə,**
**Yuxumu sənə danışdım.**

deyə deyə saflığın, duruluğun keşiyini çəkirsən, xalq inanclarına tapınmağı özünə bir borc bilirsən. "Yuxunu axar suya danış" deyən ulularımızın ruhunun, verdiyi tərbiyənin nəticəsidir ki, yuxunu dum duru gözlü bir gözələ danışırsan.

Bu, ənənəni, tərbiyəni, ədəb-ərkanı gözləməkdir, yaşatmaqdır!

Qələminə sağlıq!

Adətinə sağlıq!

İstəyinə sağlıq!

**Arzu -istəyinə çatıb Ağamir,**
**Tarixin qəlbində bitib Ağamir.**
**Bir eşqin əlindən tutub Ağamir,**
**Dünənnən bu günə yol gəldi? Gəldi!**

Bunu belə də yozmaq, yazmaq olmazmı:

"Kainatdan bura yol gəldi? Gəldi!

***

Qazağa gəlibmiş.

Qohumugilə.

Nə ağıl eləyibsə götürüb mənə zəng edib.

Tapışıb görüşdük.

O da çaşıb qaldı, mən də çaşıb qaldım.

Ruh yaxınlığı ilə mənmi ona oxşayırdım, omu mənə?

"Allah, mənə bir dost göndər." deyə bir şeir yazıbmış.

...Bizi görüşdürən görüşdürdü!

Görüşəndə anlaya bilmədik ki, bu niyyəti omu edibmiş, mənmi?

Onumu mənə göndərmişdilər, mənimi ona?!

"Ruhum ruhunu tanıdı" (C.Rumi)

Mübarək dost üzü hələ ölməyibmiş.

Mən ona baxıb güzgüləndim.

O, mənə baxıb güzgüləndi.

O, mənə "Ağamir!"- dedi.

Mən ona "Barat!" dedim

Və əslində Lənkəranlı şair qardaşım Qazağamı gəlmişdi ki?!

Məncə, yox!

Mən Lənkərana getmişdim.

Veravul çayının sahilindəydik.

Qoşa gəzirdik, qaçırdıq, uçurduq.

Bu dəfə təkcə o yerləri ( bu yerləri) deyil, bütün dünyanı, Yeri-Göyü, Ərşi-Gürşü-Kainatı dolaşıb gəzmək istəyirdik.

Ayağıyalındıq!